# “Hamilə qadınlar və erkən yaşlı uşaqlar üçün universal-mütərəqqi patronaj xidmət modelinin tətbiqi” layihəsi üzrə HESABAT

## Şamaxı rayonu

## iyul 2021-yanvar 2022-ci il

Universal- mütərəqqi patronaj xidmət modeli - patronaj tibb bacısı tərəfindən erkən yaşlı uşaqlar,o cümlədən anaların prenatal dövrdə ev patronajlarının həyata keçirilməsi üçün qabaqcıl sistemdir. Ailəyə doğma olan mühitdə mütəxəssislə görüş müvafiq problemləri anlamaq və düzgün qərar qəbul etmək baxımından unikal imkanlar yaradır.
2021-ci ilin may-iyun aylarında “Hamilə qadınlar və erkən yaşlı uşaqlar üçün universal-mütərəqqi patronaj xidmət modelinin tətbiqi” layihəsi üzrə seçilmiş nəzarətçi (supervayzer) və tibb bacıları üçün təlimlər təşkil edilmişdir.
“İlkin səhiyyə işçiləri üçün körpə və erkən yaşlı yenidoğulmuşlara göstərilən xidmətlər (Resurs Modulları üzrə)” təlimində Şamaxıda çalışan 6 həkim-pediatr və 21 sahə tibb bacısı iştirak etmişdir. Təlimlər 4 hissədən ibarət idi və hər bir hissəyə bir neçə gün ayrılmışdır :
1-ci hissə - 18-21 may (hər gün 5-saat) -

2-ci hissə - 31 may-5 iyun (hər gün 5 saat)

3-ci hissə - 16-17 iyun (hər gün 4 saat)

4-ci hissə - 21-25 iyun (hər gün 5 saat )

Təlimin mövzuları:

Erkən uşaqlıq dövrü,

Patronaj tibb bacısının yeni rolu,

Uşaqlarda İnkişafın Dəstəklənməsi və İzlənilməsi(İDIR),

Valideynlik və Uşaqların inkişafına dəstək

Fərqli inkişaf edən uşaqlar (əlilliyi və inkişaf geriliyi olan uşaqlar),

İmmunizasiya-qarşısı alına bilən infeksiyalardan uşaqların qorunması,

Körpə və erkən yaşlı uşaqların qidalanması(KEYUQ),

Uşağa qarşı sevgi (valideyinlər üçün),

Uşaq qayğısına ataların cəlb edilməsi,

Valideynləri ən çox narahat edən məsələlər,

Ev mühiti və uşaqların təhlükəsizliyi (qeyri-ixtiyari zədələnmələr).

Təlimin sonunda iştirakçılara patronajın tətbiqi üzrə metodik vəsaitlər paylanılmışdır.

İyul ayından etibarən iş prosesinə başlanmışdır.
Nəzərə alınmalıdır ki, bu layihə ağır Covid-19 pandemiya dövrünə və Covid-19 vaksinasiya dövrünə təsadüf etdiyi üçün tibbi heyətin çatışmazlığı (bütün heyət Şamaxı rayonunda peyvəndləşdirmədə iştirak edirdi) olduqca çətin vəziyyət yaratmışdır. Buna baxmayaraq iş prosesi davam etmiş və iyul ayından başlayaraq bütün supervayzer və tibb bacılarının mütəmadi monitorinqləri təşkil olunmuşdur. Monitorinq zamanı mütləq önəmli məsələlər müzakirə edilmiş, yerlərdə (kəndlərdə) aparılan iş müşahidə olunmuş , çatışmazlıqlar birgə təhlil olunmuş və patronajın düzgün aparılma qaydaları bir daha izah olunmuşdur; aylıq hesabatların düzgün tərtib edilməsinə köməklik göstərilmişdir.
Bu lahiyədə Şamaxı ASM-dən 6 supervayzer (həkim-pediatr),o cümlədən hər supervayzerə 3-4 tibb bacısı təhkim olunmaqla cəmi 21 tibb bacısı iştirak edib və təlimlərdəndən keçmişdir. Beləliklə, 6 qrup təşkil edilmişdir. Bəzi komandalarda mamalar iştirak etmişdir. Layihəyə Şamaxı rayonunun 23 kəndi cəlb olunmuşdur. Əhali sayına görə böyük kəndlər, məsələn, 7200-əhalisi olan Göylər kəndi,5200-nəfər əhalisi olan Quşçu kəndi və 2200-nəfər əhalisi olan Mədrəsə kəndləri seçilmişdir. Lakin əhalisi cəmi 200 nəfər olan çox kiçik kəndlər də siyahıya əlavə edilmişdir. Vəziyyətlə əlaqədar (vaksinasiya və pandemiya ilə bağlı məhdudiyyətlər) patronaja həftədə 3 dəfə gedilirdi, mümkün olmadıqda telefonla da məlumat alınırdı. Layihə müddətində tibb bacıları tərəfindən hər ay cəmi 0-3 yaşa qədər 600-800 uşaq və 80-100 hamilə qadın patronaj olunmuşdur.

Hər kənd üçün patronaj jurnalı tərtib olunmuşdur; orada patronaj zamanı uşağın və onun ailəsinin , həmçinin hamilə qadınların vəziyyəti qeyd olunurdu. Hər bir uşağa və ailəsinə, eləcə də ayrıca hamilə qadın üçün Patronaj xidməti üzrə qiymətləndirmə vərəqi açılmışdır.

Layihə zamanı həkim-supervayzer və tibb bacıları istifadə etdikləri sənədlər:

1. Hamilə qadınlar üçün Patronaj xidməti üzrə qiymətləndirmə vərəqisi

2. Edinburq perinatal depressiya qiymətləndirilmə şkalası.

3. 0-3 yaş arası uşaqlar üçün Patronaj xidməti üzrə qiymətləndirmə vərəqəsi

4. Patronaj xidmətinin keyfiyyətini qiymətləndirmək üçün alət (həkim-supervayzerlər üçün)

5. Tibb bacısının yaddaş kitabçası (patronaj jurnalı)

6. Hamilə qadınlar və erkən yaşlı uşaqlar üçün universal- mütərəqqi patronaj xidmət modelinin tətbiqi üçün metodiki tövsiyələr

Layihə zamanı yaradılmış qruplar.

*Birinci qrup:*

Əhmədov Mikayıl-həkim-pediatr
Patronaj tibb bacıları- Mahmudova Səltənət,Dola Reyhan,Məmmədova Vəsilə.
Bu qrupda lahiyə müddətində patronaj olunan 0-3 yaşlı uşaqların sayı 180-200 arasında və hamilələrin sayı 25-27 arasında dəyişirdi.Bu qrup ən fəal və yaxşı işləyən qruplardan biridir.

*Ikinci qrup:*

Nehmətova Kəmalə-həkim- pediatr
Patronaj tibb bacıları- Cabbarova Mətanət,Musliyeva Kamilə,Sadıqova İradə, Məmmədova Gülər.
Bu qrupda bütün lahiyə müddətində patronaj olunan 0-3 yaşlı uşaqların sayı 14-85 arasında və hamilələrin sayı 3-9 arasında dəyişirdi.
Bu qrupda patronaj tibb bacılarından birinin (Musliyeva Kamilə) səhhətində problem yarandığına görə, o, layihədə iştirakını dayandırmışdır; Musliyeva Kamilənin işlədiyi Nağara kəndinin əhalisi 500 nəfər idi və onlardan 30-u 0-3 yaşlı uşaq, 3-ü isə hamilə qadın olmuşdur. Xəstələnən tibb bacısına əvəzedici tapılmadığına görə kənd layihədən çıxarıldı və bu səbəbdən hesabatlarda uşaqların və hamilələrin sayı kəskin şəkildə azaldı.

*Üçüncü qrup:*

Süleymanova Aynur – həkim- pediatr.
Patronaj tibb işçiləri: tibb bacıları -Məmmədova Vəsilə, İbrahimova İfadə, Nuriyeva Gülnar; mama - Əhmədova İlahə.
Üçüncü qrup ən böyuk Göylər (əhalisi 7200) və Quşçu (əhalisi 5200) kəndlərini patronajla əhatə edirdi. Göylər kəndində yeni poliklinika (ASM) tikilmişdir və qrupun supervayzeri Aynur Süleymanova poliklinikanın müdiri olduğundan qrupun işi çox yaxşı təşkil olunmuşdur.
Bu qrupda layihə müddətində patronajda olan 0-3 yaşlı uşaqların sayı 150-170 arasında, hamilələrin sayı isə 6-13 arasında dəyişmişdir. Hər ay patronaj tibb bacıları bütün müvafiq yaşda olan uşaqlara baş çəkirdilər: uşaqları yoxlayır, valideynləri maarifləndirir, məsləhət verir, qiymətləndirmə vərəqələrində qeydlər aparır; hansısa səbəbdən patronaja gedə bilmədikdə, telefonla məlumat alırdılar. Patronaj işçilərin sırasında mamanın olduğu üçün bütün hamilə qadınlar asanlıqla patronaja cəlb

olunurdu. Rayonda tibb işçiləri arasında yerdəyişmələr olduğu üçün qrupa yeni işçi götürülmüşdür. Ümumiyyətlə, 3-cü qrup ən yaxşı işləyən qruplardandır.

*Dördüncü qrup:*

Alcanova Zemfira – həkim- pediatr.
Patronaj tibb bacıları - Şirəliyeva Məhluqə, Yüzbaşova Naidə, Əzimova Xalidə.
Qrupda bütün layihə müddətində patronajda olan 0-3 yaşlı uşaqların sayı 140-165 arasında, hamilələrin sayı 19-26 arasında dəyişmişdir. Bu qrupun tərkibində də dəyişikliklər baş vermişdir: Şirəliyeva Məhluqə ailə vəziyyəti ilə bağlı qrupu tərk etmişdir və qrupda tibb bacılarının sayı azalmışdır. Amma onun iş yükünü  qrupun digər üzvü olan Əzimova Xalidə əlavə olaraq öz üzərinə götürmüşdür. Qalan tibb bacıları yaşlı olduğuna görə layihənin başlanğıcında patronajların təşkili ilə bağlı problemlər yaranırdı. Lakin  layihənin ikinci yarısında supervayzerin fəallığı nəticəsində bu problem aradan  qalxdı.

*Beşinci qrup:*

Əyyubova Lətifə - həkim-pediatr
Patronaj tibb bacıları - Vahabova Narıngül, Kərimova Şölə,Şirinova Ramilə.
Bu qrupda bütün layihə müddətində patronajda olan 0-3 yaşlı uşaqların sayı 35-50 arasında, hamilələrin sayı 7-16 arasında dəyişmişdir. Qrupun supervayzeri Əyyubova Lətifə Şamaxı MRX-nın ASM-nin müdiri olduğu üçün layihənin başlanğıcında ona kifayət qədər vaxt ayıra bilmirdi və qrupun fəaliyyəti zəif olmuşdur. Lakin həkimin özünün də supervayzer kimi fəaliyyətinin monitorinqi müsbət təsir göstərmiş və patronaj işi yoluna düşmüşdür.

*Altıncı qrup:*

Məmmədova Mətanət-Həkim pediatr
Patronaj tibb işçiləri: tibb bacıları- Hüseynova Fatma,Gülalıyeva Lalə, mama - Hasilova Zahirə.
Bu qrupda bütün layihə müddətində patronajda olan 0-3 yaşlı uşaqların sayı 75-80 arasında, hamilələrin sayı 12-16 arasında dəyişmişdir. Bütün hamilə qadınlara mama Hasilova Zahirə nəzarət edirdi. Bu komanda başlanğıcda çox ləng işləsə də, sonradan, daha fəal işləyirdi.

Hər ayın sonu hər bir supervayzer və onun komandası tərəfindən birgə ev patronajları üzrə yekun hesabat hazırlanıb layihə rəhbərlərinə təqdim edilirdi.
Layihənin sonunda qrup üzvlərinin hər biri universal- proqressiv modelin prinsipləri,uşaqların sağlamlıq və rifahının təmini,evdə patronajların düzgün planlaşdırılması,həmçinin ailədaxili mühitin uşağa təsiri kimi qarşıya qoyulan tapşırıqları dəqiqliklə yerinə yetirmişdilər.

Layihənin sonunda bütün komandalar belə bir layihədə iştirak etdiyindən çox məmnun qaldıqlarını söyləmişdilər.